# Bakı şəhər Zooparkında



Bakı Zooparkı 2 yanvar 1942-ci ildə kiçik bir guşə kimi yaradılmışdır. Azərbaycan Milli Arxivindəki sənədlərdə göstərilir ki, Bakı şəhərində keçən əsrin əvvəllərindən başlayaraq belə bir parkın yaradılması üçün müxtəlif cəhdlər göstərilmişdir. Kiçik kolleksiyaları ilə fərqlənən özəl zoolojii sərgilər (zoosirklər və s.) fəaliyyət göstərmişdir. Həmçinin 1928-ci ildə Bakıda keçmiş Lunapark, indiki Nizami parkında belə bir guşə fəaliyyət göstərmişdir. Ona görə də bu ili zooparkın yaradılması tarixi kimi qəbul etmək olar. 80-ci illərə qədər zoopark Bayıl qəsəbəsində fəaliyyət göstərmişdir. Zooparkın yeni əraziyə köçürülməsinin əsas səbəbi ondan ibarətdir ki, əvvəlki ərazidə torpaq sürüşməsi ehtimalı çox idi. 1982-ci ildə daha 2,25 hektar sahə istifadəyə verildi. Zooparkın gələcək inkişafını təmin etmək məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən 2001-ci ildə torpaq sahəsi 2 hektar artırılmış və hazırda 4,25 hektara çatdırılmışdır.

Bakı Şəhər Zooparkının rəhbəri Azər Hüseynovla söhbət edərkən o, qeyd etdi ki, zoopark hər sahədə inkişaf edir. Burada 60 növ və 200 baş heyvan nümayiş olunmuşdur. Ötən illər ərzində burada bir çox yeniliklər olmuşdur. Bu illər ərzində cırtdan marallar (muntaq), Kuba zebusu, Xallı maral, alpak, flaminqolar, qırqovulların həyat tərzinə uyğun volyerlər, balıqlar üçün akvarium, sürünənlər üçün terrarium, quşların yerləşdirilməsi üçün tinglik, yeni doğulan heyvanları saxlamaq üçün volyerlər hazırlanıb istifadəyə verilmişdir. Heyvanların sağlamlığı ilə məşğul olan müalicəxana, yemlərin saxlanılması üçün anbarlar, müasir tələblərə cavab verən soyuducu kameralar yaradılmışdır.

Son illərdə akvarium balıqları və bitkilərdən ibarət yeni ekspozisiya akvariumun açılışı olmuşdur. Burada 30 irihəcmli akvariumda müxtəlif növ tropik ölkələrdə yaşayan balıqlar, akvarium bitkiləri nümayiş etdirilir. Azərbaycan qanunvericiliyinin əsasən Bakı Şəhər Heyvanat Parkı "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri" siyahısına qəbul olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Bakı Zooparkı 1995-ci ildən "Avrasiya Regional Zooparklar və Akvariumlar Assosiasiyası"nın da üzvüdür. Bu quruma 42 zooloji park - Rusiyanın, Çexiyanın, Ukraynanın və başqa ölkələrin parkları daxildir və Bakı Heyvanat Parkı bu zooparklarla sıx əməkdaşlıq edir.

Park öz heyvanat aləmini qeyri-heyvanat parkları ilə mübadilə yolu ilə artırır.

Azər müəllim heyvanat aləminin növlərindən söhbət açarkən qeyd etdi ki, Bakı Heyvanat Parkında indi 150 növ və 1100 başdan çox heyvan nümayiş etdirilir. Burada Amur pələngi, Afrika aslanları, bəbir, yaquar, qonur ayılar, Xallı marallar, Qafqaz maralları, yallı qoyunlar, Dağıstan turu, safsar, müxtəlif növ meymunlar və digər məməli heyvanlar saxlanılır, müxtəlif növ quşlar – su quşları, qızıl qaz, qutan, ördək, qu növləri, yırtıcı quşlardan – qarasaqqal, ağbaş kərkəs, qara kərkəs, məzar qartalları, dəniz qartalları, ekzotik quşlar (ara, kakadu, şako, rozella), qırqovullar, tovuz quşları, soltan toyuqları və sair nümayiş olunur.





Sürünən heyvanların nümayişi də zooparkda əsas yerlərdən birini tutur. Məsələn, piton, bağa ilanı, imperatif ilanı kimi ilanlar, Nil timsahı bu qəbildəndir. Onu da qeyd etmək lazımdır ki, zooparkda bir çox heyvanlardan balaalma əməliyyatı da müvəffəqiyyətlə həyata keçirilir. 2014-2015-ci illər ərzində canavar, alpak, xallı maral, Qafqaz nəcib maralı, Avstriya keçiləri, Şotland poniləri, Kamerun keçiləri, Aralıq dənizi tısbağalarından balalar alınmışdır. Bütün bu və ya digər nailiyyətlərin nəticəsidir ki, cari il zooparkın fəaliyyəti üçün uğurlu olmuşdur.

Bakı Şəhər Heyvanat Parkında 1-ci Avropa Oyunları ilə əlaqədar təmir və yenidənqurma işləri aparılmışdır. Belə ki, parkın ərazisindəki ağaclar budanmış, ağardılmış, hovuzlar təmir edilmiş, izolyasiya olunmuş, qəfəslərdə kanalizasiya sistemləri yeniləşmiş, rənglənmiş, yırtıcı heyvanların qəfəslərinə beton örtüyü çəkilmiş, digər işlər həyata keçirilmişdir. Həmçinin su artezian quyusu qazılmışdır ki, bu da qəfəslər arasındakı təmizlik işlərini yüngülləşdirmişdir.

Zooparkın direktoru Azər Hüseynov söhbət əsnasında onu da qeyd etdi ki, əldə olunan bütün nailiyyətlər Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın şəxsi dəstəyi ilə həyata keçirilmişdir. Leyla xanımın mənəvi və maddi dəstəyi ilə burada yeni qəfəslər inşa edilmiş, qəfəslər genişləndirilmiş, əvvəlkilərə nisbətən 5 dəfə böyüdülmüşdür. Burada heyvanların isti və soyuqdan qorunması üçün hər cür şərait yaradılmışdır. Uşaqların ev heyvanları ilə ünsiyyətdə olmaları üçün də şərait yaradılmışdır.

Bütün bu və ya digər görülmüş tədbirlərin nəticəsidir ki, bu gün şəhərimizə gələn turistlərin zooparka ziyarəti artır. O gün olmaz ki, parka turist axını olmasın. Zooparkın rəy kitabındakı turist fikirlərindən aydın olur ki, Bakı Zooparkı dünyanın ən maraqlı parklarından biridir. Avropa Oyunları zamanı ölkəmizə təşrif buyurmuş idmançı və turistlərin də rəyindən bilinir ki, zooparkın əhaliyə xidməti və yaradılmış şərait onların ürəyincə olmuşdur.

**Zabit CAVADOV,**
**"Respublika".**